Scientific News of Azerbaijan State Academy of Physical Education and Sport
Sport Science Journal vol. 5, № 4, 2023, pp. 80-86.

# NİTQ MƏDƏNİYYƏTİ MƏSƏLƏLƏRİNƏ MÜASİR YANAŞMA

**f.ü.f.d. Ş.M. Ağakişiyeva**

*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası*
shukufa.aghakishiyeva@sport.edu.az, orcid.org/0000-0002-4312-2548

**Nəşr tarixi**
Qəbul edilib: 11 oktyabr 2023
Dərc olunub: 28 dekabr 2023
© 2021 ADBTİA Bütün hüquqlar qorunur

**Annotasiya.** Müasir dövrdə ibtidai siniflərdə şagirdlərin həm yazılı, həm də şifahi nitqini inkişaf etdirməkdə proqram (kurikulum) və dərsliklərə ciddi nəzarət edilir. Məhz ana dili üzrə hər bir dərsdə əsas yeri nitqin inkişafı tutur. Demək olar ki hər bir məşğələdə əsas dərs nitqin inkişafıdır. İbtidai sinif müəllimi dərsi elə təşkil etməlidir ki, şagird həm qramatik nəzəriyyəni, həm də orfoqrafik vərdişləri mənimsəsin. Eyni zamanda bununla yanaşı nitq prosesində sözləri düzgün tələffüz etməyi, onları düzgün və yerində seçməyi, cümlə qurmağı şagirdlər bacarmalıdırlar. Onlar oxuduqları, eşitdikləri və gördükləri şeylər haqqında danışmalı, özlərinin və başqalarının fikirlərini ifadə etməyi bacarmalıdırlar. Şagirdlər öz həyat təcrübələri haqqında danışarkən və yaxud yazarkən sözləri dəqiq və düzgün, öz yerində işlətməyi bacarmalıdırlar. Onlar eyni zamanda cümlələri qrammatik cəhətdən də düzgün qurmağı bilməlidirlər. Elə buna görə də, rabitəli nitqi inkişaf etdirmək üçün lüğət və cümlə üzərində iş aparılmalıdır. Bu proses rabitəli nitqi inkişaf etdirmək üçün əsas hazırlıq mərhələsidir.Əgər şagird fikrini izah edərkən sözləri düzgün və yerində işlətməzsə, bu zaman biz rabitəli nitqdən danışa bilmərik. Məqalədə bu məsələlər geniş şəkildə təhlil olunur.

**Açar sözlər:** *nitq mədəniyyəti, nitqi inkişaf yolları, metodlar, üsullar, oxu, yazı.*

**Giriş.** Qloballaşan dövrün tələbləri baxımından şəxsiyyət yetişdirmək, onu həyata hazırlamaq və onu kadr kimi formalaşdırmaq sahəsində təhsilin üzərinə düşən vəzifələr daha da artmaqdadır. Təhsilin bünövrəsi olan ibtidai təhsil bu vəzifələrin yerinə yetirilməsində ilk addımdır. Təhsilin inkişafı üzrə atılan bütün addımlar təhsil sistemində olan digər pillə və səviyyələrə təsir etdiyi kimi ibtidai təhsilə də təsirsiz ötüşməyir. Gənc nəslin yetişdirilməsində başlanğıc olan ibtidai təhsilə müasir dövrün standartlarına cavab verən texnologiyaların tətbiqi zəruri məsələdir. Bu gün davam edən islahatlar çərçivəsində ibtidai təhsil sahəsində tədqiqatlar zəruridir. Günü-gündən inikaşaf edən pedaqogika elmindəki yeniliklər ibtidai təhsilə tətbiq edilməzdən öncə tədqiqatlar vasitəsilə optimallıq dərəcəsi müəyyən edilməlidir.

Müasir dövrümüzdə nitq bacarıqlarının formalaşdırılması zəruri tələbdir. Əsas fəaliyyət sahələrindən biri olan ünsiyyət fəaliyyəti zəruri bacarıqlar tələb edir. Bu gün elə bir şəxsiyyət yetişdirmək gərəkdir ki, o öz fəaliyyəti haqqında danışa, icra etdiyi bacarıqlarını təqdim edə bilsin. Sosial aləmdə özünü tanıtma, münasibət bildirmə, ünsiyyət qurma kimi zəruri bacarıqlar gərəkdir. Azərbaycan dili təlimində mədəni nitq vərdişləri o zaman uğurla yerinə yetirilə bilər ki, ibtidai sinif müəllimləri nitq inkişafı yönümlü interaktiv metodika ilə işləməyə alışmalıdırlar ki, artıq bu bacarıq daha da genişləndirilmiş formada ibtidai təhsil səviyyəsində daha da inkişaf etdirilir və yeni kollektiv təşəkkülünə keçid mərhələsi olur. Artıq uşaq ünsiyyətin yeni mərhələsinə qədəm qoyur. Eqosentrik nitqdən kollektiv nitqə keçid edir. Nitq bacarıqlarının formalaşdırılması və inkişaf etidirilməsi həm pedaqoji sahə, həm psixoloji sahə, həm də filologiyanın əsas problemlərindən biridir. Natiq şəxs cəmiyyətdə öz mövqeyini tapa, sosial münasibətlərdə özünü təqdim edə, oxuduğu məlumatlardan düzgün nəticələr çıxara bilər. Nitq bacarıqlarının təşəkkül etdiyi dövrdən öz inkişaf səviyəsinə çatanadək inkişaf etdirilməlidir. Bu sahədə məktəb və cəmiyyət əlbir olmalıdır.

Nitq bacarıqlarının formalaşdırlması üçün təlim prosesində xüsusi texnologiyalar seçmək gərəkdir. Bu elə texnologiyalardır ki, onlar həm təlim praktikasından çıxmış olsunlar, həm də dövrün təhsil konsepsiyaları ilə ayaqlaşmış olsunlar. Müasir təlim texnologiyaları dayanmadan inkişaf edir. Onların sayını konkret rəqəmlərlə ifadə etmək olduqca çətindir. Çünki elmi informasiyalar artdıqca onların təqdim edilməsi yolları da artır. Pedaqoji sahənin inkişafı onun yeniliklərinin təhsil təcrübəsinə gətirilməsi təlimin inkişafına zəmin yaradır. Təlimin daha optimal təşkili üçün yeni texnologiyalar irəli sürülür, bəzilərinin istifadəsi genişləndirilir, bəziləri isə tətbiqinin səmərəsiz olduğu isbat edilir. Təlim texnologiyalarından bəziləri daha da aktuallaşır, bəziləri isə pedaqoji ədəbiyyatdan uzaqlaşır. Bu gün ibtidai sinif müəllimləri dövrün ən geniş istifadə edilən texnologiyalarını fərqləndirmək, onların işləmə texnikalarını bilmək, tətbiqi zamanı yarana biləcək çətinlikləri, zəif və güclü tərəflərini, onlardan istifadə imkanlarını müəyyən etmək bacarıqlarına sahib olmalıdırlar. Bu bacarıqlara sahib olmaq üçün isə ilk növbədə onlar müasir təlim texnologiyalarının tətbiqi metodikasının, onların şagirdlərdə hansı bacarıqlar formalaşdırılmasına istifadə imkanlarının olduğunu bilməlidirlər.

Nitq və natiqliyə dair çoxsaylı tədqiqatlar mövcuddur. Abdullayev A.S., Abdullayev N.Ə., Məmmədov Z.T., Tahirov Q.İ. Adilov M.N. və başqaları bu sahədə araşdırmalar həyata keçirmişdir. Araşdırdığımız bu tədqiqat işlərində ümumi məsələlər təhlil edilmişdir. İbtidai siniflərdə ana dilinin tədsiri prosesində zəruri texnologiyaların tətbiqi ilə nitqin inkişafına dair tədqiqat işi qarşımıza çıxmamışdır. Məhz buna görə də bu tədqiqat işini seçdik və təlim texnologiyaları pedaqoji elməd inkişaf etdikcə dəyişib yeniləndiyi üçün bu mövzu daim öz aktuallığını qoruyub saxlayacaqdır.

Tədqiqatın obyekti ibtidai təhsil səviyyəsində ana dilinin tədrisi prosesi, predmeti isə ibtidai təhsil səviyyəsində ana dilinin tədrisi zamanı texnologiyalardan isitfadə ilə nitqin inkişafıdır.

Tədqiqatın məqsədi ibtidai təhsil səviyyəsində nitqin inkişafı üçün zəruri olan texnologiyaları tədqiq etmək, müasir kurikulumların tələbi baxımından təlimin təşkilində nitqin inkişafını tədqiq etməkdən ibarətdir.

**Əsas hissə.** Nitq ptosesinin iki növü var: şifahi və yazılı nitq. Onlar bir-biri ilə daim vəhdətdədir. Məktəbdə də həm yazılı, həm də şifahi nitq bir-biri ilə qarşılıqlı şəkildə inkişaf etdirilməlidir. Müasir dövrümüzdə müəllimlərin demək olar ki, əksəriyyəti, şagirdlərin, ancaq yazılı nitqini inkişaf etdirmək üzərində çalışırlar. Müəllimlər bəzən elə düşünür ki, əgər şagird inşanı müstəqil yaza bilirsə, deməli, onun şifahi nitqi öz-özünə inkişaf edəcək. Əlbəttə ki, biz bunu düzgün fikir kimi qəbul edə bilmərik. Şagird nitqin hər iki növünə düzgün yiyələnməlidir. Yalnız bu zaman biz yüksək nitq inkişafından danışa bilərik. Aparılan müşahidələr onu göstərir ki, şagirdlərin şifahi nitqində qüsurlar çox olur. Onlar ayrı-ayrı sözləri və səsləri yalnış tələffüz edir, qrammatik qaydalara bəzən riayət etmirlər. Yaşadıqları rayon və kəndlərə, həyat tərzlərinə uyğun olaraq yerli şivə və dialekt sözlərdən geniş istifadə edirlər. Cümlələrin məntiqi və üslub tələblərinə bəzən riayət etmirlər. Nitqə aid olan əsas tələbləri gözləmirlər. Bəzən tüfeyli sözlər bəzən barbarizmlərdən geniş istifadə edirlər. Aparılan müşahidələr zamanı şagirdlərin öz fikirlərini necə rabitəli ifadə etmələri müəyyənləşdirilmişdir. Biz bilirik ki, rabitəli nitq dedikdə, şagirdin xarici aləmi necə düzgün dərk edilməsindən danışılır. Təbii ki burada şagirdin bilik və yaş səviyyəsi əsas götürülməlidir. O, dərk etdiyini qrammatik, üslubi cəhətdən ifadə etməlidir. Şagirdlər öz həyat təcrübələri haqqında danışarkən və yaxud yazarkən sözləri dəqiq və düzgün, öz yerində işlətməyi bacarmalıdırlar. Onlar eyni zamanda cümlələri qrammatik cəhətdən də düzgün qurmağı bilməlidirlər. Elə buna görə də, rabitəli nitqi inkişaf etdirmək üçün lüğət və cümlə üzərində iş aparılmalıdır. Bu proses rabitəli nitqi inkişaf etdirmək üçün əsas hazırlıq mərhələsidir. Əgər şagird fikrini izah edərkən sözləri düzgün və yerində işlətməzsə, bu zaman biz rabitəli nitqdən danışa bilmərik.

Şagirdlərin nitqində ən əsas problemlərdən biri düzgün cümlə qurmaqdır. Düzgün cümlə dedikdə, "kitabdakı kimi"cümlələr de-

yil, öz fikirlərini ifadə edə biləcək səviyyədə fikirləri səsləndirmə nəzərdə tutulur. Şagirdlərin düzgün cümlə qurması dilin müəyyən normalarına riayət etmələri, cümlədə uzlaşmalarını düzgün müəyyənləşdirmələrini nəzərdə tuturuq. Bu, əsasən, dərsliklərdə də yer alan "sözləri cümlədə işlət" tapşırıqlarının formalaşdırdığı bacarıqdır. Şagirdlər arasında dialoqların təşkil edilməsi, kiçik həcmli mətnlərin oxunub, təhlil edilməsi də düzgün cümlə qurmaq işində şagirdlərə yardımçı olar bilər. Düzgün cümlə düzgün ifadə edilmiş fikir deməkdir. Şagirdlərdə fikir mədəniyyətinin əsas tərkib elemnti kimi onları qüsurlu cümlələr üzərində işləmək gərəkdir. Günlük danışıq prosesində də müəllim bu məqamı unutmalı deyildir. Nəzərə alsaq ki, nitq ertələnmiş nitq təqlidinin məhsuludur, bu zaman deməli, müəllim də dərs ərzində öz nitqinə diqqət etməli, daha zəngin sözlərlə düzülmüş bir cümlələr ifadə etməlidir.

İfadə və inşa rabitəli nitqin əsas növüdür. Onlar bu vərdişləri əsasən suallara cavab vermə işindən qazanırlar. İfadə və inşaların əsasını mürəkkəb çalışma və iş formaları təşkil edir. Onlar şagirdlərin müstəqilliyini və fəallığını artırır. İfadə və inşalar bəzi ümumi cəhətlərə malikdirlər. İlk növbədə onlar cümləni və fikirləri umumi məzmun və ideya ətrafında birləşdirirlər. Eyni zamanda təfəkkür və nitqin inkişafında mühüm rol oynayırlar. İbtidai siniflərdə şagirdlərin rabitəli nitqinin inkişafına bunlar müsbət təsir göstərir: 1)oxu 2) ifadə 3) İnşa (esse) 4) əməli yazılar.

Rabitəli nitqin yaradılması və inkişafı üçün bir sıra tələblər vardır: 1. Şagirdlər öz fikirlərini başqa şəxslərə çatdırmaq, həmçinin başqalarının fikirlərini başa düşmək üçün dildən istifadə edirlər, bu səbəbdən nitq məzmunca dolğun olmalıdır; 2. Məntiqi ardıcıllığa malik olmalıdır. Yəni, şagird danışdığı materialda məntiqi ardıcıllığı qoruyub saxlamalıdır. Əgər danışılan materialda məntiqi ardıcıllıq pozularsa, bu zaman nitqdəki rabitə pozular və qarşıdakı şəxs danışanı çətinliklə başa düşər; 3. Dolğun məzmun və hadisələrin ardıcıl şəkildə sıralanması zamanı həm leksik cəhətdən zəngin olan cümlələrdən istifadə olunmalı, həm də cümlələr qramatik, üslubi cəhətdən düzgün quluşmuş vəziyyətdə olmalıdır; 4. Əgər şagirdlərdə formalaşan rabitəli nitq nə qədər dolğun və sərbəst olarsa, bu zaman onlar materiallarda mühim əhəmiyyət kəsb edən məsələləri ön plana çəkə bilərlər, buna səbəb isə şagirdlərin əsas və ikinci dərəcəli hadisələri bir-birindən ayırd etmə bacarığının olmasıdır; 5. Digər bir tələb isə ondan ibarətdir ki, şagird öz fikirlərini sərbəst şəkildə ifadə edə bilsin, əzbərçiliyə yol verməsin, həm danışığında, həm də üslubunda fərdi üslubu və fikirləri hiss oluna bilsin.

Hər bir insan bütün ömrü boyu öz nitqini təkmilləşdirir, inkişaf etdirir, dilin zənginliklərini mənimsəyir. Erkən uşaqlıq dövründə bütün uşaqlarda digər insanlar ilə ünsiyyət qurmaq marağı yaranır. Bu zaman uşaq bu marağını sadə nitq vasitələri ilə ödəyir. Lakin uşağın yaşı artdıqca daha çətin söz vahidlərindən, birləşmələrdən istifadə edərək öz fikirlərini qarşısındakına ötürür. Yəni nitq vasitələrinin köməyi ilə uşaqlar dili mənimsəyirlər. Məhz bu səbəbdən uşaqların nitqini formalaşdırmaq və inkişaf etdirmək üçün müntəzəm şəkildə məşğul olmaq lazımdır. Şagirdlərdə nitqin inkişafı üçün müəllimlər ilə birgə gərgin və uzun zaman və əmək tələb olunur, buna görə də müvəqqəti yaranan uğursuzluqlar heç kəsi ruhdan salmamalıdır. Bu prosesdə sistematik görülən iş mütləq öz bəhrəsini verəcəkdir. Nitq bacarıqları və vərdişlərinin inkişaf etdirilməsi zamanı nitq daha da gözəlləşir və mükəmməlləşir. Bəs daha yaxşı nitq dedikdə nə başa düşülür? Şagirdlər və müəllimlər daha yaxşı bir nitq üçün nə etməlidirlər? Bu sualların cavabı kimi sadəcə daha yaxşı bildiyini yazmaq və danışmaq lazımdır, bu həm şagirdin özü üçün, həm də başqaları üçün faydalı və maraqlı olar. Bəzən isə olur ki məktəbdə müəllimlər şagirdlərə hazır olmadıqları nəyisə danışmağı təklif edirlər. Az yaşlı şagirdlərin nitqinin kasıb, yeksənək olmağı da təəccüblü deyil. Həmin şagirdlər lazimi materialları kasıb nitqləri ilə zəif danışırlar. Heç kəsə sirr deyildir ki, pis nitqə malik olan şagirdlər təlimdə geri qalır və müəllimlərinin verdikləri tapşırıqların öhdəsindən vaxtında gələ bilmirlər. Əgər nitq ifadəli olarsa, dinləyiciyə lazimi dərəcədə təsir göstərmək mümkündür. Nitqin ifadəliyi dedikdə

isə şəxsin öz fikrini aydın, səlis, inandırıcı, rabitəli ifadə etmək bacarığı nəzərdə tutulur. Həmçinin ifadələrin düzülüşü, söz seçimi, faktların seçimi, hekayənin ümumi əhval-ruhiyyəsi ilə, intonasiya ilə insanların hislərinə təsir etmək bacarığı da nitqin ifadəliyinə aiddir.

Şagirdlərin oxusunun ifadəliyinə öz müsbət təsirini göstərən, həmçinin nitqini daha ifadəli edən bir faktor da şifahi xalq yaradıcılığı nümunələrindən məqsədəuyğun şəkildə istifadə üzərində işin təşkilidir. Buna səbəb isə məsəllər, atalar sözləri və s. məzmunla mətnlərin əmr, sual və nəqli intonasiyaları məntiqi vurğu ilə melodiyalı səslənir və bu proses şagirdlərdə xoş əhval-ruhiyyə yaradır. Məsələn, "El bir olsa, dağ oynadar yerindən" məsəli söylənilərsə və bu məsəlin izahı üçün "El gücü sel gücü" nümunəsindən istifadə olunacaqdır.

Şagirdlərdə nitqin ifadəliyinə nail olmaq üçün bir sıra metodikalar vardır. Bunlara ədəbi tələffüz metodikası, ifadə metodikası, geniş oxu metodikası və inşa metodikası aiddir. Dünyada baş verən qloballaşma prosesi nəticəsində Azərbaycan təhsil sistemi Avropa təhsil sisteminə inteqrasiya olunmuşdur, bu isə öz növbəsində təhsil prosesi zamanı interaktiv metodlardan, yeni təlim texnologiyalarından, müxtəlif üsul və vasitələrdən səmərəli istifadə olunması tələbini yaratmışdır.

Fəal təlim şagirdlərdə həmçinin sərbəstliyə, fikrini müstəqil sürətdə ifadə etmə bacarığına, yaradıcılıq və dərk etmə fəallığına, digər təlim-tərbiyə keyfiyyətlərinin formalaşdırılmasına daha əsaslı zəmin, şərait yaradır. Bunun üçün fəal təlim hal-hazırda təhsildə müasir dövrün əsas tələblərindəndir. Bütün bunlar öz yerində alqışlanmalıdır, lakin biz burada bir məsələni xüsusi olaraq vurğulamalıylq. Bizim hər birimiz təhsildəki uğurlarımız üçün ilk növbədə müəllimlərimizin aşıladığı oxumaq və danışmaq bacarıq və vərdişlərinə minnətdar olmaq lazımdır. Biz necə oxumaq və necə danışmaq lazım olduğunu öz müəllimlərimizdən öyrənmişik, bu olmasaydı, şübhəsiz fikirləri başa düşməz, dərk etməz və məqsədyönlü danışmağı da bacarmazdıq.

Təhsil alanlar ilkin olaraq oxumağın texniki biliklərini öyrənməlidirlər, ona görə ki, şagirdlər və tələbələr özlərində oxuduqları məlumatları başa düşmək bacarığını inkişaf etdirə bilməsələr gələcək təhsil həyatlarında böyük müvəffəqiyyətsizliyə düçar olacaqlar. Pedaqoji proses zamanı yaranan ciddi problemlərin başında məhz oxu tədrisi problemi durur, belə ki, bu problem daim həm müəllimlərin, həm də psixoloqların diqqət mərkəzində olmuşdur.

Nitq inkişafı metodologiyasında mədəni nitqə inteqrasiya, funksional üslublarla sərbəst danışmaq və nitqdə fərdi özəllik kimi deyil, bir-birini şərtləndirən və irəliyə doğru istiqamətləndirən hallar kimi qurulmalıdır. Müasir dövrdə artıq dünya praktikası oxunan yeni informasiyaları anlamaq meyarına istiqamətlənmişdir. Dünyanın bir sıra ölkələrində vaxtaşırı oxu bacarıqlarının formalaşdırılması testləri təşkil edilir. Belə testlərin mahiyyəti "cəmiyyətin gələcək həyatı insanların yazılı məlumatları anlamaq və anladıqlarını əks etdirmək, mətnin məzmunundan bilik və bacarıqlarını, imkanlarını inkişaf etdirmək, qarşısına qoyduğu məqsədlərə nail olmaq, fəal iştirakını təşkil etmək bacarığı oxu savadlılığı meyarından asılıdır".

Aparılan təcrübələrdən məlum olmuşdur ki, sürətli oxuma vərdişlərinə yiyələnmək üçün daha çox oxumaq oxumaq lazımdır. Eyni zamanda oxuma zamanı işləmək diqqəti artırır, yaddaşı isə gücləndirir. İnsan beyninin zehni gücü bu göstəricələr ilə düz mütənasibdir. Alçaq səslə və aramla oxumaq məlumatların qəbul edilməsi üçün daha əlverişlidir, lakin səs tonunu qaldıraraq uzun zaman oxumaq həm mümkün deyil, həm də gərəksizdir. Şagird özü üçün oxuduğu zaman onun oxuma sürəti də olduqca artır. Araşdırmalar sübut etmişdir ki, normal oxu sürətinə malik şagirdlər üçün dəqiqdə yüz iyimri sözün oxunması gözlənilən nəticədir. Bəs bu səviyyəyə çatmaq üçün nə etmək lazımdır? Hər bir şagirdə doğru və şüurlu şəkildə oxumağı necə öyrətmək olar? Bəs onlarda necə fərqli növdə mətnlər üzərində düzgün işləməyi, oxuduğunu anlama səviyyəsini müəyyənləşdirməyi öyrətmək mümkündür? Necə etmək lazımdır ki, şagirdlər oxuduqları mətnlərin mənasını dərk etsinlər? Ümumiyyətlə biz şagirdlərə necə oxu dərsini sevdirə bilərik? Böyük ehtimalla bütün müəllimlər bu suallar haqqında olduqca düşünmüş və şagird-

lərdə oxu vərdişlərini artırmağın üsullarını axtarıb cavab tapmağa çalışmışlar.

Şagirdlərin həm nitqini, həm də müşahidəçilik qabiliyyətini formalaşdırmaq üçün metodik ədəbiyyatda bir sıra tapşırıqlar vardır. Bunlara nümunə kimi Y.İ.Tixeyevanın "İbtidai məktəbdə şagirdlərin nitqini inkişaf etdirmək yolları" adlı əsərində belə tapşırıqlar təklif edilmişdir: 1) Məktəbə gələrkən yolüstü ətrafdakı binalardan birinə nəzər sal və həmin binanın diqqətini ilk cəlb edən əsas əlamətlərini yadında saxlamağa çalış. Növbəti günlərdə də həmçinin maşahidəni davam etdirərək binanı daha diqqətlə izlə və yeni, fərqli əlamətlər tapmağa çalış. 2) Daha sonra isə sən sinifdə günlərlə müşahidə etdiyin binanı təsəvvüründə canlandırmalı və binanı yazılı şəkildə təsvir etməlisən. Evə qayıdan zaman dəftərində yazdığın əlamətləri binanın əlamətləri ilə bir də tutuşdur və səhvlərini düzəlt. - Bu nümunələr "rəsmi" təsvirə aiddir.

Rabitəli nitqin, ümumilikdə ibtidai siniflərdə ana dili təliminə həsr edilmiş ədəbiyyatlar ölkəmizdə zəngin tədqiqatlar sırasına daxildir. İbtidai təhsildə tətbiq edilən texnologiyalar bu gün tədqiqat işlərində araşdırılan əsas məsələlərdən biridir. Ölkəmizdə bu sahədə aparılan geniş miqyaslı tədqiqatlar işləri, itidai təhsilin tədrisi metodikasına həsr edilmiş çoxsaylı tədqiqatlar mövcuddur.

Müasir dövrümüzdə ibtidai siniflərdə şagirdlərin həm yazılı həm şifahi nitqini inkişaf etdirməkdə proqram (kurikulum) və dərsliklərə ciddi nəzarət edilir. Məhz ana dili üzrə hər bir dərsdə əsas yeri nitqin inkişafı tutur. Demək olar ki, hər bir məşğələdə əsas dərs nitqin inkişafıdır. İbtidai sinif müəllimi dərsi elə təşkil etməlidir ki, şagird ,həm qramatik nəzəriyyəni, həm orfoqrafik vərdişləri mənimsəsin. Eyni zamanda bununla yanaşı nitq prosesində sözləri düzgün tələffüz etəyi, onları düzgün və yerində seçməyi, cümlə qurmağı şagirdlər bacarmalıdırlar. Onlar oxuduqları, eşitdikləri və gördükləri şeylər haqqında danışmalı, özlərinin və başqalarının fikirlərini ifadə etməyi bacarmalıdırlar. Şagirdlər öz həyat təcrübələri haqqında danışarkən və yaxud yazarkən sözləri dəqiq və düzgün, öz yerində işlətməyi bacarmalıdırlar. Onlar eyni zamanda cümlələri qrammatik cəhətdən də düzgün qurmağı bilməlidirlər. Elə buna görə də, rabitəli nitqi inkişaf etdirmək üçün lüğət və cümlə üzərində iş aparılmalıdır. Bu proses rabitəli nitqi inkişaf etdirmək üçün əsas hazırlıq mərhələsidir.Əgər şagird fikrini izah edərkən sözləri düzgün və yerində işlətməzsə bu zaman biz rabitəli nitqdən danışa bilmərik. Nitqin inkişafı üzrə işin əsas istiqamətlərinə daxildir: 1. Lüğət üzrə işburaya lüğətin zənginləşdirilməsi, lüğətin dəqiqləşdirilməsi, lüğətin fəallaşdırılması, lüğətin təmizliyi daxildir; 2. Düzgün cümə qurmaq üzə iş; 3. Ədəbi tələffüz üzrə işin təşkili; 4. Rabitəli nitqin inkişafı.

Pedaqoji proses zamanı yaranan ciddi problemlərin başında məhz oxu tədrisi problemi durur, belə ki, bu problem daim həm müəllimlərin, həm də psixoloqların diqqət mərkəzində olmuşdur. Müxtəlif ölkələrin tədqiqatçıları bunun üzərində daim araşadırmalar aparmış və problemi aradan qaldırmağın yollarını axtarmışlar. Onlardan ən məşhurları rus tədqiqatçıları T.G. Egorov, N.A. Menchinskaya, P.P. Blonsky, L.S. Slavina, G.N. Kudin, D.B. Elkonin, S.M. Teombach, G.A. Zuckerman və başqaları olmuşlar. Tədris prosesinə yeni başlayan şagirdlər üçün öyrəndikləri informasiyalar çox yeni və maraqlı olur, bu zaman onlar hətta bəzən çətinliklərlə də üzləşirlər. Məktəbə yeni başlayan şagirdlər müəllimlərinin verdikləri tapşırıqları sərbəst şəkildə necə həll edəcəklərini bilmirlər. Bu səbəbdən də müəllimlər şagirdlərə ilk əvvəllər bu mövzuda yardım göstərirlər, lakin zaman keçdikcə onlar artıq zəruri bacarıqlara özləri yiyələnirlər. Bununla da şagirdlər sərbəst şəkildə oxuma, yazma və öyrənmə prosesini mənimsəyir, inkişaf etdirirlər.

Müasir kurikulumun tələbləri cəhətdən bu gün ibtidai sinif müəllimi uşaqlarda idraki, emosional, psixomoto fəaliyyəti formalaşdırmağa nail olmağa cəhd etməlidirlər. Bu cəhətdən müasir təlim texnologiyalarının tətbiqinə cəhd etməlidirlər. Ana dili fənninin tədrisində sinif müəllimləri məzmun standartlarının gerçəkləşdirməsinə nail olmalıdır. Təlim nəticəsinin alt standartlar əsasında qurulması müasir kurikulumun əsas tələblərindən biridir. İbtdai sinif müəllimidən müəllimlərindən fərqli olaraq bir fənnin deyil, tədris etdiyi bir neçə fən-

nin kurikulumunu, onun təlim strategiyalarını və qiymətləndirmə meyarlarını bilməlidir. Müasir kurrikulum əsasında tərtib olunmuş yeni dərsliklər, dərs vəsaitləri həmçinin dərsliklərdə tədqiqat üçün yaradılmış imkanlar oxu təliminin səviyyəsinin yüksəldilməsi üçün səmərəli şərait formalaşdırır. Geniş şəkildə tətbiq edilən izahlı qiraətin həyata keçirilməsində əsas məqsəd ibtidai siniflərdə oxuma vərdişlərinin inkişaf etdirilməsi, verilən mətnlər vasitəsilə müsbət dəyərlər, keyfiyyətlərin formalaşdırılmasıdır. Oxu təliminin düzgün təşkili ibtidai sinifdə şagirdlərinin yalnız ana dili fənni üzrə bilik və bacarıqlarına təsir etmir, o bütövlük bütün fənlərin tədrisinə təsir edir. Oxu təlimi vasitəsilə şagirdlərdə dünyagörüşü formalaşır, şagirdlər həyati əhəmiyyət kəsb edən məlumatlarla tanış olurlar. Bu cəhətdən oxu təliminin təşkilinə xüsusi əhəmiyyət vermək gərəkdir.

## ƏDƏBİYYAT

1. **Abbasov A.N., Əlizadə H.Ə.** *Pedaqogika. Pedaqoji aliməktəblər üçün dərs vəsaiti.* Bakı: Renessans, 2000, 202 s.
2. **Abbasov Ə.M.** *Təhsil islahatı və kurikulumların hazırlanması problemi.* Təhsil Problemləri İnstitutunun Elmi əsərləri. 2005, №1, s.45-50.
3. **Abbasov Ə.M.** *Yeni fənn kurikulumlarının səciyyəvi cəhətləri*. Təhsil Problemləri İnstitutunun Elmi əsərləri. 2007, №1, s.19-24.
4. **Abbasov Ə.M., Süleymanova A.Y.** *Məktəb kurikulumunun hazırlanması.* Təhsil Problemləri İnstitutunun Elmi əsərləri. 2007, №4, s. 20-25.
5. **Abdullayev N.Ə., Tahirov Q.İ.** *Düzgün nitq təliminin bəzi məsələləri.* Bakı, 2004, 201s.
6. *Azərbaycan Respublikasının Təhsil Sahəsində İslahat Proqramı.* Bakı: Çaşıoğlu, 1999, 65 s.
7. **Kərimov Y.Ş.** İbtidai təlim: problemlər vəzifələr. Bakı: Nasir, 2000, 128 s.
8. **Kərimov Y.Ş.** *İbtidai təlimdə məzmun islahatları*. İbtidaiməktəb və məktəbəqədər tərbiyə. Bakı, 2003, № 2, s. 3-7.
9. **Morozova Y.** *Methods of Enhancing Speaking Skills of Elementary Level Students.* Translation Journal, the Author, 2013.
10. **Westgate, D., Hughes, M.** *Speaking and listening across the primary curriculum: an entry to improved learning and a focus for CPD.* Education 3-13, 2015, 43 (5), pp. 565-578.

# СОВРЕМЕННЫЙ ПОДХОД К ВОПРОСАМ РЕЧЕВОЙ КУЛЬТУРЫ

**д.ф.н. Ш.М. Агакишиева**

*Азербайджанская Государственная Академия Физической Культуры и Спорта*
shukufa.aghakishiyeva@sport.edu.az, orcid.org/0000-0002-4312-2548

**Аннотация.** В нашу современную эпоху строго контролируются программы (учебные планы) и учебники по развитию как письменной, так и устной речи учащихся начальных классов. Именно развитие речи занимает главное место на каждом уроке по родному языку. Главным занятием почти на каждом уроке является развитие речи. Учитель начальных классов должен организовать урок таким образом, чтобы ученик усвоил как теорию грамматики, так и навыки правописания. При этом помимо этого учащиеся должны уметь правильно произносить слова, правильно и в нужном месте выбирать их, составлять предложения. Они должны иметь возможность говорить о том, что они читают, слышат и видят, и выражать свое мнение и мнение других. Студенты должны уметь точно и правильно использовать слова, когда говорят или пишут о своем жизненном опыте. Они также должны уметь строить предложения грамматически. Поэтому для развития связной речи необходимо проводить работу над

словарным запасом и предложениями. Этот процесс является основным подготовительным этапом развития коммуникативной речи. Если учащийся неправильно и уместно использует слова при объяснении своей мысли, то речь не может идти о коммуникативной речи. Эти вопросы подробно анализируются в статье.

**Ключевые слова:** *речевая культура, пути развития речи, приемы, методы, чтение, письмо.*

## MODERN APPROACH TO SPEECH CULTURE ISSUES

**PhD Sh.M. Agakishiyeva**

*Azerbaijan State Academy of Physical Education and Sport*
shukufa.aghakishiyeva@sport.edu.az, orcid.org/0000-0002-4312-2548

**Annotation.** In our modern era, programs (curriculum) and textbooks are strictly controlled to develop both written and oral speech of students in primary classes. It is the development of speech that takes the main place in every lesson on the mother tongue. The main lesson in almost every lesson is the development of speech. The primary school teacher should organize the lesson in such a way that the student learns both grammatical theory and spelling habits. At the same time, in addition to this, students should be able to pronounce words correctly, choose them correctly and in the right place, and make sentences. They should be able to talk about what they read, hear and see, and express their own and others' opinions. Students should be able to use words accurately and correctly when speaking or writing about their life experiences. They should also know how to construct sentences grammatically. Therefore, work on vocabulary and sentences should be done to develop coherent speech. This process is the main preparatory stage for developing communicative speech. If the student does not use words correctly and appropriately when explaining his idea, then we cannot talk about communicative speech. These issues are extensively analyzed in the article.

**Keywords:** *speech culture, ways of speech development, methods, techniques, reading, writing.*